# QADIN VƏ UŞAQ MÖVZULARININ MEDİADA İŞIQLANDIRILMASI PRİNSİPLƏRİ

*Media nümayəndələri üçün tövsiyələr*

## Faydalı və effektiv əməkdaşlıq naminə

Prinsiplər BMT-nin Uşaq Fondu (UNİCEF)
və Qadınlara qarşı ayrı-seçkiliyin ləğv
olunması üzrə Komitəsinin (CEDAW),
eləcə də Avropa Şurasının tövsiyələri
əsasında Ailə, Qadın və Uşaq Problemləri
üzrə Dövlət Komitəsi tərəfindən hazırlanıb.

# GENDER BƏRABƏRLİYİ VƏ QADINLARLA BAĞLI MÖVZULAR MEDİADA

Cəmiyyətdə gender bərabərliyinin təmin edilməsi və ayrı-seçkiliyin aradan qaldırılmasında ən önəmli məqamlardan biri KİV-lərin fəaliyyəti ilə bağlıdır.  Media təmsilçilərinin, jurnalistlərin, eləcə də blogerlərin gender bərabərliyi prinsipinin mahiyyətini tam dərk edərək, onun cəmiyyətə verəcəyi faydanı bilərək fəaliyyət göstərmələri cəmiyyətdəki cinslərarası bərabərsizliyin aradan qaldırılmasına, mənfi stereotiplərin aradan çıxmasına yol aça bilər.

Medianın, o cümlədən sosial medianın işi qadınların hüquqlarının qorunması, eləcə də onlara qarşı məişət (və digər gender-əsaslı) zorakılığının qarşısının alınmasında təsirli vasitə ola bilər, çünki düzgün məlumatlandırma cəmiyyətin qadın hüquqlarına və onlarla bağlı problemlərə həssaslığını artırır.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi olaraq, zorakılığı dəstəkləyən çıxışların, media paylaşımlarının sayını minimuma endirmək, zorakılığın istənilən təzahürünə qarşı çıxan mədəniyyəti formalaşdırmaq və gücləndirmək üçün müəyyən etdiyimiz tövsiyələri sizə təqdim edirik. Sözügedən tövsiyələrlə media nümayəndələri və bloggeləri məlumat hazırlayarkən  ayrı-seçkilik və stereotiplərlə mübarizəyə yönələn təşəbbüslərə dəstək verməyə, gender bərabərliyini təşviq etməyə çağırırıq.

Ümid edirik ki, bu tövsiyələr zorakılıq qurbanları ilə media nümayəndələri və Komitə, eləcə də bu qurbanlara yardım göstərən aidiyyəti təşkilatlar arasında EFFEKTİV VƏ FAYDALI üçtərəfli əməkdaşlığı formalaşdırmağa kömək edəcək.

## MEDİADA GENDER BƏRABƏRLİYİ

**Cinsi mənsubiyyətə əsaslanan ayrı-seçkilik yolverilməzdir.**

- Onlayn, xüsusilə də sosial medianın aktual olduğu bir dövrdə bu şəbəkələrdə qeydiyyatı olan hər kəs, xüsusilə də böyük auditoriya ilə işləyən bloggerlər gender bərabərliyi prinsiplərinə hörmət etməli, cinsi ayrı-seçkilik yaradan və ya cinsi nifrətə çağıran üslubdan uzaq durmalıdırlar.

- Bəzən paylaşımlarda hadisənin mahiyyəti izah edilmədən, "qadın sürücü", "qadın oğru", "dələduz qadın" və sair kimi ifadələrdən istifadə edilir, hadisə törədicisi və ya hadisə qurbanı olan şəxslərin cinsi məsubiyyəti qabardılır. Kişilərlə bağlı bənzər hadisələri təqdim edərkən isə bu fərqləndirməni görmürük. "Kişi sürücü" , "kişi həkim", "dələduz kişi" və s. demədiyimiz kimi, "qadın sürücü", "qadın həkim" kimi ifadələrin işlədilməsindən də uzaq durmalıyıq.



▪ Paylaşımlar və yayılan məlumatlar gender stereotiplərini təbliğ etməməli, onlara qarşı mübarizəni əks etdirməli, mediada qadınların və kişilərin pozitiv, gender stereotiplərindən uzaq imicini təşviq etməlidir.

▪ Paylaşımlarda gender-əsaslı zorakılıq hallarının işıqlandırılmasına həssaslıqla yanaşılmalı, gender-əsaslı zorakılıq təbliğ edilməməli və cəmiyyətdə onun neqativ nəticələrinə dair məlumatlılığın artırılmasına səy göstərilməlidir.

▪ Reklam kampaniyalarında qadınların ləyaqətinin qorunması və müsbət imicinin formalaşdırılması, qadınlarla kişilər arasındakı real münasibətlərin formalaşdırılması əsas götürülməlidir. Reklamlarda qadın və kişilərin bədənlərinin hər hansı formada istismar edilməsi yolverilməzdir. Cinsi mənsubiyyət zəmnində ayrı-seçkiliyə gətirib çıxara biləcək gender xarakterli reklamların, nifrətə təhrikin və gender-əsaslı zorakılığın təsvir edildiyi reklamların yayılması məqbul sayılmır.

# MƏİŞƏT ZORAKILIĞI MÖVZUSUNUN İŞIQLANDIRILMASI İLƏ BAĞLI TÖVSİYƏLƏR

**1. Ən vacib qayda “ONA ZİYAN VURMAYIN”.**

Əsas vəzifə zorakılıq qurbanının emosional təhlükəsizliyinin qayğısına qalmaqdır. Nə görüş, nə verdiyiniz suallar, nə də hazırladığınız material onun həyatına mənfi təsir etməməlidir. Unutmayın ki, etdiyiniz paylaşımda zorakılıqdan əziyyət çəkən, eləcə də qadın və uşaqlar üçün sığınacaqda, dostu, qohumları və ya başqa yerdə gizlənən şəxsin fiziki təhlükəsizliyi prioritetdir.

**2. Detallara varmayın.**

Məlumatda zorakılıq qurbanının kimliyini, görüntüsünü gizli saxlayın, hekayəsini anonim paylaşın, hüquqlarına hörmət edin. Bəzən istəmədən hansısa təfərrüatın bilinməsi onu təhlükəyə ata bilər. Şəklinin çəkilməsinə, adının açıqlanmasına icazə versə belə, mümkün təhükələrlə bağlı onu məlumatlandırın. Hadisənin detallarını açıqlamayın: məhkəmə qərarı verilənədək zorakılıq qurbanının, eləcə də  ad, soyaq, yaşayış ünvanı, siması açıqlanmamalıdır.

**3. Doğru yönləndirin.**

Əgər zorakılıq qurbanı ilk olaraq sizə müraciət edirsə, o zaman onu bu sahədə fəaliyyət göstərən qurumlara, psixoloji dəstək xidmətlərinə yönləndirin. Məişət zorakılığı mövzusunda bu qurum və xidmətləri tövsiyə edirik:



Daxili İşlər Nazirliyinin Qaynar Xətti - 102
Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi - (+994 12) 498 00 92
Dövlət Komitəsinin Hüquqi təminat şöbəsi (hüquqi məsləhət üçün) - (+994 12) 493-70-39
Gender-əsaslı zorakılıqla bağlı Dəstək Xətti – (+994 012) 860
Qadın Dəstək Xətti - 116-111

**4. Zorakılığın nə olduğunu anladın.**

Əslində zorakılığın yalnız döyülərək öldürüldükdə, ciddi fiziki xəsarətlər olduqda zorakılıq kimi qiymətləndirilməsi haqqında miflə mübarizə aparmağa dəstək göstərin. Zorakılıq heç vaxt adi  bir münaqişə və ya ailə münaqişəsi ola bilməz və ya əksinə. Hər ailədə münaqişələr, mübahisələr olur, bu normaldır. Lakin, münaqişələr özündə həll ediləbilən problemi ehtiva edir və onun sonu var. Bərabər tərəf müqabilləri mübahisə edir, razılaşmır, fikirlərini müdafiə edir və qarşılıqlı razılıqla məsələ həll edilir. Məişət zorakılığı isə artan tezliklə sistematik şəkildə təkrarlanan zorakılıq hadisələridir. Məqsədi başqa bir şəxsi özünə tabe etmək, onun üzərində güc və nəzarəti əldə etməkdir. O, tərəflərin bərabərliyini nəzərdə tutmur,  bir şəxsin fiziki gücdən, iqtisadi imkanlarından, statusundan, uşaqlarından və s. istifadə edərək, üstünlüyü ələ almasıdır.

Sizdən zorakılığın müxtəlif formalarda (seksual, fiziki, psixoloji və iqtisadi) olduğunu və onun latentliyini - gizlənə bildiyini, sevgi və qayğı kimi qələmə verildiyini, lakin belə olduqda daha da təhlükəli hal aldığını qeyd etməyinizi xahiş edirik. Materiallarda zorakılığın hər hansı formasının norma olmadığını vurğulayın.



**5. Qadınlara qarşı gender-əsaslı zorakılıq məsələsi haqqında tez-tez yazın.**

Problemi bacardıqca öz bloqunuzda qabardın. Təkcə 8 mart və ya noyabrın 25-də - Qadınlara Qarşı Zorakılıqla Beynəlxalq Mübarizə Günündə deyil. Adi günlərdə də zorakılığın norma olmadığından danışın. Belə hadisələrdən təsirlənmiş qadınların müttəfiqi, dəstəkçisi olmağa çalışın.

**6. Həssas yanaşın. Etik prinsipləri qoruyun.**

Başqasının çarəsizliyinə qarşı həssas olmaq və eyni zamanda zorakılıq qurbanı ilə təhlükəsiz emosional məsafə saxlamaq vacibdir. Mövzu ilə işləməyə başlamazdan əvvəl insanın başına gələnləri detallı öyrənin. Faktları yoxlayın. Dəqiq olmayan məlumatları yaymayın. Təkcə deyilənlərin mənasına deyil, həm də tonuna diqqət yetirin.

**7. Şərhləri yoxlamadan keçirin və ya onları bağlayın.**

Qurbanı günahlandırmaq, onun yenidən travma almasına səbəb olur. İzləyiciləri şərh qaydaları haqqında xəbərdar etmək, qəhrəmanı təkrar travmadan qoruya biləcək zəruri vasitədir. Biz senzuranın əleyhinəyik və söz azadlığının tərəfdarıyıq, lakin ittihamedici, nifrət dolu, açıq-aşkar mənfi, aqressiv bəyanatların, qadınlara qarşı düşmənçilik ifadə edən şərhlərin qadağan edilməsi senzura deyil.

**8. Dil mədəniyyətini formalaşdırın.**

Paylaşımınızda nifrət nitqindən istifadə etməyin, zorakılıqla bağlı mif və stereotipləri yayımlamayın. Alçaldıcı deyil, düzgün dildən istifadə edin.

Nifrət nitqi dedikdə şərəf və ləyaqətin alçaldılması, damğalanma, ayrı-seçkilik yaradan leksika, mənfi stereotiplər, zorakılığın müdafiə edilməsi və zorakılığa təhrik edilməsi nəzərdə tutulur.



İrqçilik və ayrı-seçkiliyə qarşı Avropa Komissiyasının Hesabatının mətnində (ECRI, 8 dekabr 2015-ci il) təsbit edilmiş nifrət nitqinin tərifinə əsasən, nifrət nitqi hər hansı formada böhtan, nifrət və ya nifrətin təbliği, asanlaşdırılması və təşviqidir.

# UŞAQLARLA BAĞLI MÖVZULAR MEDİADA



Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi UNİCEF-in jurnalistlər üçün hazırladığı təlimatları əsas götürərək, media, eləcə də sosial media nümayəndələri üçün uşaqlara aid materialların hazırlanması və yayımlanması ilə bağlı bir sıra vacib məqamları əks etdirən tövsiyələri təqdim edir. Tövsiyələrin hazırlanmasında məqsəd istər ənənvi, istərsə də onlayn mediada uşaqların hüquq və mənafelərinə zərbə vuracaq məlumatların paylaşılmasının qarşısını almaq, uşaq hüquqlarını qurban vermədən, cəmiyyətin maraqlarına xidmət edən mediaya dəstək göstərməkdir.

## ÜMUMİ PRİNSİPLƏR

1. Hər bir uşağın hüquq və mənafelərini istənilən vəziyyətdə diqqətə alın və buna hörmətlə yanaşın, uşağın maraqlarını hər şeydən üstün tutun.

2. Uşaqlarla bağlı hazırlanan istənilən materialda reytinq, nüfuz, operativlik kimi meyarlardan öncə doğruluq, uşaqların təhlükəsizliyi, hüquq və mənafelərinin qorunması, həssas yanaşma ön planda tutulmalıdır.

3. Uşaqlarla bağlı materiallarda, onların hekayəsinin və ya görüntüsünün yer aldığı mövzularda təqdimetmənin uyğun olduğuna diqqət edin: stereotipli və sensasiyalı fikirlərdən istifadə etməyin.

4. Uşaqlardan müsahibə alarkən və ya onlar barədə xəbər hazırlayarkən hər bir uşağın şəxsi toxunulmazlıq, konfidensiallıq, eşidilmək, onlara aid qərarların qəbul olunmasında iştirak hüquqlarının, hər cür zərər və cəzadan, eləcə də potensial təhlükələrdən qorunma hüququnun təmin olunmasına xüsusi diqqət edin.

5. Uşaqlarla bağlı olan istənilən mövzuda (uşaq hüquqları ilə bağlı maarifləndirmə, müdafiə mövzuları da daxil olmaqla) onların maraqları öncəlik təşkil etməlidir.

6. Uşağın fikir və baxışlarının onun yaşına və yetkinliyinə uyğun olaraq təqdim edilməsinə diqqət edin.

7. Uşağın düşdüyü vəziyyətə daha çox bələd olan və onu ən doğru qiymətləndirə bilən şəxslərlə məsləhətləşin (siyasi, sosial, mədəni aspektlərdən).

8. İctimai faydalılığına əmin olmadığınız hallarda uşaqların vizual, eləcə də hər hansı formada kimliyinin açıqlanmasının\bilinməsinin qarşısını alın.

9. Uşağın şəxsiyyəti ilə bağlı məlumatlar dəyişdirilmiş, gizlədilmiş və ya heç istifadə olunmamış olsa belə onu, yaxınlarını, yaxud yaşıdlarını riskə atacaq məlumat və ya şəkilləri yayımlamayın.



## UŞAQLARLA MÜSAHİBƏNİN PRİNSİPLƏRİ:

1. Heç bir uşağa zərər verməyin; günahlandırıcı, mədəni dəyərlərə zidd, uşağı təhlükəyə atan, alçaldan, yaxud travmalı hadisələrlə bağlı kədər və əzabını xatırladan (daha əvvəl yaşadığı pis, kədərli xatirələri yenidən canlandıran) suallar, şərhlərdən istifadə etməyin, belə münasibət göstərməyin.

2. Uşağın həssas olduğu mövzularda verdiyiniz sualın onu narahat etdiyini, incitdiyini hiss etsəniz, müsahibəni dayandırın, yaxud mövzunu dəyişin.

3. Müsahib seçərkən uşaqların cinsinə, irqinə, yaşına, dininə, statusuna, təhsilinə və ya fiziki imkanlarına görə ayrı-seçkilik etməyin.

4. Ssenari qurmayın: uşaqları onların həyatının bir hissəsi olmayan hadisələri danışmağa və ya hərəkətləri etməyə sövq etməyin.

5. Uşağın və ya valideynin/himayədarın jurnalistlə danışdığını bildiyinə əmin olun. Müsahibənin məqsədini və harada istifadə olunacağını açıqlayın. Onlar yerli, yaxud qlobal səviyyədə paylaşılacaq hekayənin bir parçası ola biləcəklərini bilməlidirlər.

6. Uşaqdan və onun valideyn/himayədarından bütün müsahibə, video-çəkiliş və foto-çəkiliş üçün icazə istəyin. Əgər mümkündürsə, bu icazəni yazılı formada da ala bilərsiniz. Müsahibəyə razı olmaları üçün nə uşaq, nə də valideyni/himayədarı buna məcbur etmək olmaz. Adətən belə icazə uşağın güvəndiyi böyüklərin qərarı ilə, onun dilindən alınır.

7. Onun rahat olduğuna, eləcə də təzyiqə məruz qalmadan hekayəsini bölüşdüyünə əmin olun. Bunun üçün müsahibədə iştirak edən şəxslərin, eləcə də media nümayəndələrinin sayını bacardıqca məhdudlaşdırın.



8. Uşaqla müsahibənin harda və necə alındığına diqqət edin. Sakit, onun rahat olacağı bir yer tapmağa, hətta məkanı onunla birlikdə seçməyə çalışın. Nəzərə alın ki, vizuallıq və səs fonu seçimi də uşaq, onun həyatı, hekayəsi haqqında nələrsə "danışa" bilər. Uşağın evini, yaşadığı icmanı, olduğu ictimai yerləri göstərməklə onun riskə və ya mənfi təsirə məruz qalmayacağına əmin olun.

9.Uşaqlara qarşı davranışlarınıza diqqət edin. Onlara səbr, sevgi və hörmətlə yanaşın. "Böyüklük" etməyin, yaxud onlardan çox bildiyinizi hiss etdirməyə çalışmayın.

10. Uşağın dilinin ifadə tərzi və orijinallığını qorumaq üçün səsyazma cihazından istifadə etməyə çalışın.

11. Ağır travma keçirmiş uşaqlardan müsahibə almaq ümumiyyətlə doğru deyil. Uşaq stressli və gərgin psixoloji vəziyyətdə olarsa, bunu nəzərə alaraq tanıdığı və güvəndiyi böyüklə birlikdə fikirlərini soruşmaq daha məqsədəuyğundur.



## UŞAQLARIN İŞIQLANDIRILMASININ PRİNSİPLƏRİ

1. Uşağa qarşı neqativ münasibətə səbəb olacaq, onu psixoloji və fiziki zərərə, sui-istifadəyə, ömrü boyu ayrı-seçkiliyə və ya yaşadığı icma tərəfindən rədd edilməsinə məruz qoya biləcək təsvirlərdən, ifadələrdən, kateqoriyalaşmadan çəkinin.

2. Uşağın hekayəsi və ya təsviri üçün dəqiq kontekst seçin.

3. Aşağıdakı hallarda hər zaman 18 yaşdan kiçik hər kəsin adını dəyişdirin və görüntüsünü gizlədin:

- Uşağın özü, valideyni/himayədarı buna icazə vermirsə;
- Seksual zorakılıq və sui-istifadə qurbanıdırsa;
- Fiziki və seksual zorakılıqda günahlandırılırsa;
- HİV-ə yoluxmuş və QİÇS xəstəsidirsə;
- Cinayətdə şübhəli bilinir və ya günahlandırılırsa.
- Cəmiyyətdə mənfi qarşılanacaq antisosiyal hərəkət və davranışı varsa.



4. Zərər dəyməsi, yaxud qisas ehtimalı olan müəyyən riskli və ya potensial riskli hallarda, sığınacaq axtarışında olan, qaçqın və ya məcburi köçkün kimi təsnifləndirilən istənilən uşağın adını dəyişmək və görüntüsünü gizlətmək vacibdir. Unutmayın ki, mövzu medianın marağından düşdükdə belə, həmin uşaqlar çətin vəziyyətdə qalmağa davam edirlər.

5. Bəzi hallarda uşağın şəxsiyyətinin açıqlanması (ad və ya görüntü) onun maraqlarına xidmət edir. Buna baxmayaraq, uşağın şəxsiyyəti istifadə olunan zaman onu mümkün zərər və təhlükələrdən qorumaq, linçləmə, mənəvi zorakılığa məruzqalma halında dəstəkləmək lazımdır.

6. Uşağın dediklərinin düzgünlüyünü yoxlayın, digər uşaqlar və ya böyüklərlə, ən yaxşı halda hər ikisi ilə də təsdiqləyin.

7. Əgər siz uşağın risk qrupunda olduğundan şübhələnirsinizsə, mövzunun aktuallıq dərəcəsindən asılı olmayaraq, hadisəni tək bir uşaq haqqında deyil, ümumiləşdirilmiş şəkildə işıqlandırın.

8. Uşaqların iştirak etdiyi hadisələrdən (müharibə, təbii fəlakət, yanğın, terror, cinayət) bəhs edərkən seçdiyiniz ifadələrdə onların günahlandırılması, mənfi obrazda, eləcə də çarəsiz kimi təqdim edilməsindən çəkinin. Şəxsi həyatlarına çox müdaxilə etməməyə çalışın, təfərrüatlara varmayın. Haqqlarında artıq məlumatın yayılması onları təhlükəyə ata bilər.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi
012-498-00-92
office@scfwca.gov.az
Ailə Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi
aileqadinusaq
AileQadinUsaq
aileqadinusaq